# Bir xoş soraq və səda...

## Prof. Dr. Əflatun Nemətzadənin yaradıcılığı haqqında qeydlər



**Sonu bilinməyən yollardan keçərək zirvələrə yüksəlmək insanın əzmi və güclü iradəsi ilə mümkün olur. Deyir, quş yuvasına qanadıyla uçar. İnsanın qanadı da onun səyi, davamlı çalışması və idealıdır. Bu mənada ömrünün hər ötən gününü şam kimi yandırıb möhtəşəm edən Prof. Dr. Əflatun Nemətzadə bu gün Azərbaycan və türk dünyasında bir rejissor, yazar, tərcüməçi, qəzetçi, aktyor, teatrşünas, pedaqoq kimi tanınan və sevilən şəxsiyyətlərdən biridir. Onun teatr sənətinin nəzəri əsaslarına, estetik prinsiplərinin araşdırılmasına aid əsərləri, çoxyönlü sənət və yaradıcılıq yolu nəinki Azərbaycanda, eyni zamanda Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Rusiya, Tatarıstan (RF), Yəmən, Polşa, Fransa və Türkiyə başda olmaqla dünyanın bir çox ölkələrində təqdir edilir və yüksək dəyərləndirilir.**

Prof. Dr. Əflatun Nemətzadəni haqlı olaraq novator (yenilikçi) rejissor adlandırırlar. Onun opera və teatr sahəsindəki fəaliyyətinə diqqət etsəniz, bu fikrin yanlış olmadığını görə bilərsiniz. Təhlilçilərin fikrincə, o, səhnəyə qoyduğu hər bir əsərə öz fikirlərini, dünya görüşünü və estetik düşüncəsini yansıtmaqdadır. Sənətdə təqlidçilik yolundan uzaq olan rejissor öz yolu ilə getməyə üstünlük verir. Hər bir zaman yalnızca əsərin mətninə, librettosuna bağlı olan rejissor olmağa çalışır. Onun ilk dəfə M.F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında səhnəyə qoyduğu dünya opera sənətinin şah əsərlərindən sayılan rus bəstəkarı Aleksandr Borodinin "Knyaz İqor" operası üzərində çalışarkən söylədiyi fikirləri olduqca diqqətçəkən məqamdır. Müsahibələrinin birində o, öz iş prinsipini izah edərkən deyir: "Knyaz İqor"u tamaşaya hazırlamazdan əvvəl bir çox arxivlərdə oldum və araşdırmalar apardım". Beləliklə, o, təhsil aldığı Leninqrad Konservatoriyasının kitabxanasında bəstəkarın beş min səhifəlik arxivini səhifə-səhifə araşdırır və bəstəkarın operaya yazdığı proloqu tapır və əlyazmasını rektor, professor Pavel Serebiyakova aparır. Dünyaca ünlü pianist və çox səmimi insan olan rektor deyir: "Uzun illər idi ki, bu əlyazmasını axtarsaq da, heç cür tapa bilmirdik. İndi birlikdə gedək, əlyazmasını hansı sandıqdan tapdığını mənə də göstər".

Leninqrad Konservatoriyası qədim təhsil mərkəzidir və zəngin kitabxanası var. Əflatun qabağa düşüb rəfdəki köhnə sandığı rektora göstərir. Rektor burada çalışanlardan sandığı endirmələri üçün göstəriş verir. Ağır sandığı çətinliklə aşağı endirirlər. Sandığın qapağı açılır, qalın toz təbəqəsi altındakı əlyazmaları arasındakı dosyelərdən birini açan Əflatun onu rektora göstərir. Borodinin ünlü tədqiqatçılarından olan Anatoli Dmitriyev fikir söyləmək üçün dəvət alır əlyazmasına baxan tədqiqatçı deyir: "Bəli, bu proloqun əlyazmasıdır. İllərlə burada çalışsam da, bunu tapmaq mənə qismət olmayıb. Tədqiqatçı Dmitriyev ilə Əflatunu iş otağına aparan rektor deyir: "Komissiya təşkil olunsun, verilən rəyə əsasən məlumat hazırlansın. Proloqun əlyazmasını Əflatun Nemətzadənin tapmasına dair rəyə uyğun sənəd Moskvaya göndərilsin". Bundan sonra rektor Əflatun Nemətzadəyə Təşəkkürnamə təqdim edir və deyir: "Rus tədqiqatçılar bu əlyazmasını tapa bilmədi, amma Qafqazlı igid bunu bacardı".

1970-ci ildə Rimski-Korsakov adına Sankt-Peterburq (Leninqrad) Dövlət Konservatoriyasının Opera rejissorluğu fakültəsinə qəbul olunan Əflatun Nemətzadə Prof. Dr. Boris Pokrovskinin sinfində dərs alıb. Təhsildə böyük uğurlar qazanan Əflatun Nemətzadə bu illərdə Polşanın Varşava, Krakov, Qdansk, Poznan teatrlarında və universitetlərində təcrübə keçir. Poznanda Qratovskinin laboratoriyasında çalışır, səhnə əsərlərinin məşqlərini izləyir. Beləliklə, Polşada bir ilə yaxın teatr təhsili alır.

1975-ci ildə konservatoriyanın məzunu olan Əflatun Nemətzadə Sverdlovsk (indiki Yekaterinburq) Opera teatrında işə düzəlir. Az sonra ulu öndər Heydər Əliyevin təlimatıyla Bakı Akademik Opera və Balet Teatrına dəvət edilir. Əflatun Nemətzadə burada Qara Qarayevin mənəvi dəstəyilə A. Borodinin "Knyaz İqor" operasını ilk orijinal musiqisilə tamaşaya qoyur. Rejissorun səhnə quruluşu verdiyi bu opera əsəri Moskva və Sankt-Peterburq Opera-Balet səhnələrində də sərgilənir. Rejissorun Bakı opera səhnəsində tamaşaya qoyduğu "Aldanmış Ulduzlar" (M.Quliyev), "Cırtdan" (N.Əliverdibəyov) orijinal opera əsərləri SSRİ Mədəniyyət Nazirliyinin mükafatına və diplomuna layiq görülür. Onun Tatarıstan Dövlət Teatrında tamaşaya qoyduğu "Şəhərin Yay Günləri" (Anar) Sovetlər İttifaqı Mədəniyyət Nazirliyinin mükafatını alır. Moskva, Leninqrad, Özbəkistan Dövlət Dram və Opera teatrlarında tamaşaya qoyduğu səhnə əsərləri ilə Azərbaycan dramaturgiyasını uğurla təbliğ edir. 1976-cı ildə Moskva Böyük Teatrının beynəlxalq müsabiqəsinin qalibi olan Əflatun Nemətzadə teatrın baş rejissoru dünyaca ünlü sənətkar, müəllimi Boris Pokroviskinin yaradıcı heyətinə alınır, onunla birlikdə sənətsevərlərin yüksək dəyər verdiyi bir sıra opera əsərlərini tamaşaya hazırlayır.

1980-ci ildə SSRİ-nin Mədəniyyət Nazirliyi tərəfindən Yəmən Xalq Respublikasına göndərilən Prof. Dr. Əflatun Nemətzadə paytaxt şəhəri Ədəndə Dövlət Milli Musiqi Teatrını qurur. Və dahi bəstəkar Üzeyir Hacıbəylinin "Məşədi İbad" musiqili əsəri ilə bu yeni dövlət teatrının açılışını gerçəkləşdirmiş olur. Eyni zamanda Ədəndə Gözəl Sənətlər İnstitutunun yaradıcısı kimi bir ad qazanır. Burada "Stanislavski və səhnə etikası", "Sənət fəlsəfəsi" dərslərinin tədrisini həyata keçirir. 1984-cü ilə qədər Şekspirin "Otello"su daxil iyirmiyədək dram, faciə, komediya və operanı səhnəyə qoyur, mükafatlar və diplomlar alır. Yenidən Moskvaya dönən Prof. Dr. Əflatun Nemətzadə ailə vəziyyətini nəzərə alıb Bakıya qayıdır.

1984-1991-ci illər arasında Bakı Opera və Balet Teatrında operalar, dram və musiqi əsərlərini səhnəyə qoyur. 1988-ci ildə Gürcüstanın Teatr Universiteti Elmi Şurasında Doktorluq işini müdafiə edir və Moskvada İncəsənət Elmləri Doktoru diplomunu alır. 12 il Azərbaycan Dövlət İncəsənət Akademiyasında aktyorluq, rejissorluq, musiqili səhnə dərsləri verir, tələbələri ilə dram və musiqili səhnə əsərlərini tamaşaya qoyur. 1991-ci ilin mayında dosent elmi adını alır. Bu illərdə Azərbaycan televiziyasında opera və dram janrında tamaşalar hazırlayır, uzun illər "Opera haqqında" aylıq proqramların müəllifi olur. Məşhur yapon yazarı Akutaqava Ryuneskonun öyküləri əsasında "Yaxşılığa yaxşılıqla" film-tamaşasına imza atır; yazdığı səhnə əsərləri və tərcümələri teatrlarda tamaşaya qoyulur.

Prof. Dr. Əflatun Nemətzadə 1991-ci ildə Türkiyə Cümhuriyyəti Mədəniyyət naziri Namiq Kamal Zeybək tərəfindən Ankara Dövlət Opera və Balet Teatrına rejissor olaraq işləmək üçün dəvət edilir. Burada Azərbaycan bəstəkarı Süleyman Ələsgərovun "Milyonçunun dilənçi oğlu" operasını yeni versiyada tamaşaya qoyur. Bu arada yeni mədəniyyət naziri Fikri Sağlar tərəfindən Ankaraya dəvət alan ünlü rejissor Mersin Dövlət Opera və Balet Teatrını qurmaq tapşırığı alır və opera teatrına baş rejissor təyin olunur. O, 1993-cü ildə Türkiyənin sayca dördüncü olan Dövlət Opera və Balet Teatrını "Arşın mal alan" əsəri ilə açır. 1995-ci ilə qədər Ankara və Mersin Opera və Balet Teatrında bir çox opera əsərlərini tamaşaya qoyur. Mədəniyyət naziri Fikri Sağların istəyinə uyğun Mersin şəhər mədəniyyət idarəsində yeni bir Teatr Cəmiyyəti qurur və bir çox tamaşalar sərgiləyir. 1992-ci ildən həm də prof. Dr. Güneyt Gökçər və Bilkənd Universitetinin başqanı Prof. Dr. İhsan Doğramacı tərəfindən universitetin teatr şöbəsində və dövlət konservatoriyasında dərs vermək üçün dəvət alan prof. Dr. Əflatun Nemətzadə ayda 4 dəfə Ankaraya gəlir, universitetdə və konservatoriyada "Səhnə", "Musiqili səhnə", "Aktyorluq sənəti" dərslərini tədris edir. Bilkənd Universiteti İdarə Heyətinin başqanı sayın Prof. Dr. İhsan Doğramacının razılığını alan Əflatun bəy Türkiyədə ilk dəfə "Teatr rejissorluğu" və "Opera rejissorluğu" şöbəsinin qurulması layihəsini gerçəkləşdirir. Hər iki şöbənin tədris və dərs proqramlarını yazır.

Ali Təhsil Şurasının icrası və təlimatı ilə Prof. Dr. Əflatun Nemətzadənin Türkiyədə ilk dəfə olaraq "Opera rejissorluğu" (2000), "Opera sənəti" (2002) və universitetlərin aktyorluq ixtisasları üçün "Aktyorluq sənəti təhsili" (beş illik elmi-araşdırmalarının yekunu kimi) dərs kitabları dərc edilmişdir. Türkiyədə nüfuzlu dərgilərdə "Güney Azərbaycanda teatrın yaranması və estetik prinsipləri"nə aid və müxtəlif mövzularda elmi məqalələri dərc edilmişdir. O, Azərbaycan, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Makedoniya, Türkiyənin bir çox şəhərlərində panel və simpoziumların iştirakşısı olmuşdur; "Türk dili", "Səhnə sənətinin estetik problemləri", "Dastanlarımız və Türk qəhrəmanları", "Etik və estetik özəlliklər", "Sənət fəlsəfəsi", "Çağdaş teatr sənəti", "Türk teatrının bədii problemləri", "Sənət dövlət işidir", "Ortaq türk dili" və s. aktual problemlərə aid elmi tezisləri və fikirləri dərgilərdə dərc edilmişdir.

TÜRKSOY-un baş katibi Düsen Kaseinovun ideya müəllifi və təşkilatçısı olduğu "Koroğlu" operasının 1-ci beynəlxalq tamaşası" layihəsinin altı Türk Dövləti, Tatarıstan və Başqırdıstandan (R.F.) dəvət olunan ulduz sənətçilərin iştirakıyla Bişkek Dövlət Opera və Balet Teatrında ilk dəfə uğurla səhnəyə qoyan Prof. Dr. Əflatun Nemətzadənin bu tamaşası 2009-cu ilin 8 və 9 sentyabrında Bişkek Opera Teatrında, 12 sentyabr Almatı Opera Teatrında, 15 sentyabr Ankara Opera Teatrında, 18 sentyabr Bakıda; "Koroğlu" operasının 2-ci beynəlxalq tamaşasını Astana Opera Teatrında səhnəyə qoydu. Daha sonra 2010-cu ilin 23 iyulunda bu tamaşa ilə 1-ci İstanbul Dünya Opera Festivalında Haliç Konqres Sarayı səhnəsində böyük uğura imza atdı.

26-31 mart 2010-cu ildə Fransanın paytaxtı Parisdə UNESCO-nun səhnəsində ilk dəfə olaraq Prof. Dr. Əflatun Nemətzadənin "Novruz bayramı" oyun tamaşası səhnəyə qoyuldu. Ssenarisini özü yazdığı bu musiqili oyun 28 martda UNESCO səhnəsində, 30 martda Strasburqda göstərildi.

Prof. Dr. Əflatun Nemətzadə 2016-cı ilin yanvarında Azərbaycan Respublikası Ankara səfirliyinin və TÜRKSOY-un dəstəyi ilə "Koroğlu" operasını 3-cü beynəlxalq tamaşa layihəsi çərçivəsində Mersin Dövlət Opera Teatrı səhnəsində, "Leyli və Məcnun" operasını 5-ci beynəlxalq tamaşa layihəsi çərçivəsində Ankara Dövlət Opera Teatrı səhnəsində—2016-cı ilin mayında tamaşaya qoymuşdur.

Prof. Dr. Əflatun Nemətzadənin Leninqrad konservatoriyasında musiqi təhsili alması və bir opera rejissoru olması onun səhnə sənətinin müxtəlif janrlarında olan əsərlərə quruluş vermək imkanlarını artırmışdır. Opera və dram əsərləri ilə yanaşı, musiqili komediya janrında olan əsərlərə də uğurlu səhnə həyatı vermişdir. Məşhur rejissorun səhnə quruluşu verdiyi operalardan "Knyaz İqor", "Faust", "Leyli və Məcnun", "Şah İsmayıl", "Karmen", "Aldanmış ulduzlar", "Cırtdan", "Toska", "Eşq İksiri", "Kavalyero Rustikano", "Koroğlu" və s. "Arşın mal alan", "Ulduz", "Məşədi İbad", "Madmazel Nituş", "Gözəl Helena", "Özümüz bilərik", "Qaynana" və s. musiqili komediyaları, dram əsərləri: "Otello", "Kamança", "Solğun çiçəklər", "Yaxşılığa yaxşılıqla", "Meşşanlar", "Şübhə", "Yağış işığı", "Qaracaoğlan", "Sahillər və talelər", "Şəhərin yay günləri" və s. bu kimi rəngarəng ideya məzmuna malikdir və müxtəlif tarixi mərhələlərə aiddir.

Uzun illərdir ki, Prof. Dr. Əflatun Nemətzadə "Respublika" qəzetinin Türkiyə təmsilçisidir. Azərbaycan oxucularına qardaş Türkiyədən hər mövzuda, o cümlədən bizə bu doğma ölkənin mədəni həyatından bəhs edən məqalələr yazır. O, Türkiyənin "Ankara İl Qazetesi" və "Anadolu" qəzetinin səhifə yazarıdır. Bu sözügedən qəzetlərdə Azərbaycan səhifəsi açan müəllif davamlı olaraq iki qardaş ölkənin əlaqələri, Azərbaycanın ədəbiyyat, sənət, teatr, musiqi, elm adamları, tariximiz, adət-ənənələrimiz haqqında səhifə-səhifə yazılar dərc etdirir. Türkiyə TV kanallarında Azərbaycan-Türkiyə qardaşlığını əks etdirən mövzularda, Ermənistanın Azərbaycan torpaqlarını işğalı, Xocalı soyqırımı, Azərbaycanda sənət, mədəniyyət, siyasət mövzularında apardığı verilişlərdə ölkələrimizi dünyaya tanıtmaqda böyük fədakarlıqlar göstərir.

Prof. Dr. Əflatun Nemətzadə 2007-ci ildə Ankarada "Oyanış" romanını çap etdirmişdir. "Sənin, mənim və bizim" dram əsərinin müəllifidir. "Oğuz Xaqan", H.Cavidin eyniadlı dramı əsasında "İblis" opera-balet librettosunu yazmışdır. Durmuş Önərlə birlikdə "Dodaqdan qəlbə" opera librettosunu yazmış, Mesopotamiya tarixindən bəhs edən "İnanna" opera librettosunun müəllifidir.

Bu gün Prof. Dr. Əflatun Nemətzadə çağdaş Azərbaycan ədəbi-mədəni fikir tarixinin tanınan və çox sevilən nümayəndəsi kimi işıqlı bir yolun yorulmaq bilməyən yolçusudur. Bu kiçik qeydlərimiz sənətin feyzini duya-duya yaşayan və yaradan, aldığı sevinc payını bizimlə bölüşən Əflatun müəllimdən bir xoş soraq və sədadır...

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**